

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 yanvar 2022-ci il №2 (2613) https://mod.gov.az Qiymət 30 qəpik


*Təlim*

## "Dünyaya Vətən ucalığından baxırıq!.."



***44 günlük Vətən müharibəsinə qədərki dövrə nəzər yetirsək, həm ulu öndər Heydər Əliyev, həm də Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ölkəmizin hərbi qüdrətinin artırılmasına xüsusi önəm verildiyindən və ordumuzun inkişafına yönəlik görülən saysız-hesabsız xidmətlərdən uzun-uzadı danışmaq olar. Təməli ölkəmizin iqtisadi gücünə söykənən hərb siyasəti nəticəsində müasir standartlara cavab verən silah və texnikalar arsenalımıza daxil edildi, şəxsi heyətin hərbi hissədə gündəlik fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün arzuolunan şərait yaradıldı, hərbçilərin sosial rifahının yüksəldilməsi üçün böyük işlər görüldü. Həmçinin Ali Baş Komandanın tapşırığı ilə ordu rəhbərliyi tərəfindən aparılan islahatlar nəticəsində hərbi qulluqçuların döyüş vərdişlərinin artırılması, habelə, mənəvi-psixoloji hazırlığın yüksəldilməsi məqsədilə fəaliyyətlər planlı və mərhələli şəkildə həyata keçirildi. Bir sözlə, Azərbaycan Ordusunun qüdrətlənməsi üçün uzun yol qət edildi. Nəticədə ordumuz böyük uğurlara imza atmağı bacardı. Dünyanın güclü orduları sırasında qərarlaşan Şanlı Azərbaycan Ordusu ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardıqları uğurlu hərb siyasətinin təcəssümüdür. Bunun məntiqi nəticəsidir ki, Azərbaycan əsgərinin 44 günlük haqq savaşında qazandığı Böyük Qələbə Ali Baş Komandana sədaqətin, xalqa inamın qələbəsi oldu.***

Müharibə başa çatsa da, hərb sahəsinin güclənməsi, ordumuzun döyüşaparma və ölkəmizin özünümüdafiə qabiliyyətinin artırılması məqsədilə fəaliyyətlər planlı şəkildə davam edir. Ezamiyyətimiz zamanı bunun bir daha şahidi olduq. Quru Qoşunlarının "N" Əməliyyat (Komando) hərbi hissəsində zabit Rüfət Quliyevlə görüşüb, bölmə tərəfindən yerinə yetiriləcək fəaliyyətlərlə bağlı məlumat aldıq: "Təlim planına əsasən şəxsi heyət "Həyəcan" siqnalı ilə qaldırıldıqdan sonra, zəruri təchizatı və təminatı çevik şəkildə götürərək komandirin növbəti tapşırığı ilə hərbi avtomobillərlə daimi dislokasiya məntəqəsini tərk etməklə şərti əməliyyat rayonunda cəmləşməlidir. Əldə edilən məlumata əsasən şərti düşmənin törədəcəyi təxribatın qarşısını alma, meşə daxilində və xüsusi salınmış maneələr zolağından hərəkət edərək terror qruplaşmalarına zərərvurma, onları ələkeçirmə və digər tapşırıqları icra edəcəklər. Bundan əlavə kəskin iqlim şəraitində və çətin relyefli ərazilərdə şərti düşmənin qurduğu pusquları dəf etmə və ərazinin kəşfi qaydalarını məşq edəcəklər".

(Ardı 3-cü səhifədə)



Torpaqlarımıza qarşı hər hansı təhdid olarsa, dərhal cavab verməyə qadirik

2-ci səhifədə



"Hədəflər dəqiq vurulurdu"

3-cü səhifədə



"Aviatəmir zavodu ölkəmizin müdafiə qüdrətinin artırılmasına yönələn fəaliyyətini inamla davam etdirir"

4-5-ci səhifədə



"Döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsində ictimai-siyasi hazırlıq dərslərinin əhəmiyyəti böyükdür"

6-cı səhifədə

# Əlahiddə Ümumqoşun Orduda taktiki-xüsusi təlimlər davam edir

*Əlahiddə Ümumqoşun Orduda taktiki-xüsusi təlim keçirilib. Təlim zamanı təxribata hazırlaşan şərti düşmənin hava hücumundan müdafiə sistemi sıradan çıxarılıb.*







Təlimin senarisinə əsasən, xüsusi təyinatlı qruplara strateji obyektlərimizi və hava məkanımızı hədəf alan şərti düşmənin hava hücumundan müdafiə sisteminin məhv edilməsi tapşırığı verilib.

Tapşırıq almış xüsusi təyinatlı qruplar terrorçuların məskən saldığı yaşayış məntəqəsinə həmlə ediblər.

Terror fəaliyyətlərinin gücləndirilməsi üçün köməyə gələn şərti düşmənin şəxsi heyətlə dolu hərbi texnikaları pusquya salınaraq sıradan çıxarılıb.

Real döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şərtlərlə keçirilən təlimdə yaxın məsafəli döyüş elementləri yerinə yetirilib.

Şərti düşmənin hava hücumundan müdafiə sisteminin idarəetmə məntəqəsini və döyüş heyətlərini zərərsizləşdirən xüsusi təyinatlılarımız terror qruplaşmasının zenit-raket kompleksini partlayış üsulu ilə məhv ediblər.

Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimin sonunda şəxsi heyətin terrorla mübarizə vərdişləri yüksək qiymətləndirilib, təlimdə iştirak edən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

*Döyüş hazırlığı*

# Torpaqlarımıza qarşı hər hansı təhdid olarsa, dərhal cavab verməyə qadirik

Ölkənin təhlükəsizliyinin qarantı olan nizami ordunun yaradılması, onun bugünkü səviyyəyə çatdırılması, döyüş qabiliyyətinin artırılması böyük siyasi iradə və gərgin zəhmət hesabına başa gəlib. Ali Baş Komandanın rəhbərliyi ilə ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl, planlı surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Ordunun müasir döyüş texnikası ilə təchiz olunması və hərbi qulluqçuların xidmət və sosial-məişət şəraitinin yüksək səviyyəyə çatdırılması daim diqqət mərkəzində saxlanılır. Maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün ordumuzun dünyanın ən qüdrətli ordularının sırasına daxil olmasına imkan yaradıb. Aparılan islahatlar və ordu quruculuğu prosesində ən müasir silah-texnika arsenalımıza daxil edilib. Müxtəlif növ müasir atıcı silahlar, zirehli texnikalar, PUA-lar, reaktiv raket kompleksləri, artilleriya qurğuları Azərbaycan əsgərinin istifadəsinə verilib. Təbii ki, müasir silahların mövcudluğu ilə ordunun hər zaman qalib olacağını düşünmək düzgün fikir olmaz. Çünki təcrübəsiz hərbçinin ixtiyarında olan istənilən silah adi dəmir parçasından başqa bir şey deyil. Buna görə də ordumuzda hərbi qulluqçularımızın döyüş təcrübəsinin və praktiki vərdişlərinin artırılması məqsədilə daima məşğələlər, dərslər və təlimlər keçirilir.

"N" hərbi hissəsində artilleriyaçılarımızla müasir tələblərə cavab verən 2S19 "MSTA-S" özüyeriyən haubitsasının taktiki-texniki xüsusiyyətlərinin öyrədilməsi məqsədilə keçirilən praktiki məşğələnin şahidi olduq.

Vətən müharibəsi zamanı istifadə olunan artilleriya qurğusu müasir döyüş maşınlarındandır. "MSTA-S" xarici görünüş cəhətdən tanka bənzəsə də, tankdan daha çevikdir. Haubitsanın zirehi ən yüksək keyfiyyətə malik poladdan hazırlanıb. Sahib olduğu zireh texnikanın ekipajını yüngül atıcı silahların təsirindən və qəlpələrdən qoruyur. Düşmənin canlı qüvvəsini, möhkəmləndirilən atəş nöqtələrini, istehkam və ehtiyatlarını, artilleriya və minaatan batareyalarını, tank və digər zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulub.



Məşğələ bitdikdən sonra məşğələ rəhbəri və döyüş texnikasının heyəti ilə yaxından tanış olmaq imkanı qazandıq.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini fərqlənmə ilə bitirən kapitan İgid Məmmədovla həmsöhbət olduq. "Vətən müharibəsində digər bölmələr kimi, artilleriyaçılarımız da qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəldilər", - deyə zabit söhbətə başladı. "Müasir dövrdə döyüş tapşırıqlarının düzgün və vaxtında yerinə yetirilməsi hər bir zabit, gizir və əsgərdən yüksək nəzəri-hərbi biliklə yanaşı, mənəvi-psixoloji hazırlıq da tələb edir. Odur ki, döyüşdə uğur qazanmaq üçün təkcə müasir silahlara malik olmaq qələbəyə zəmin deyil. Silahlardan peşəkarcasına istifadə etmək, fiziki cəhətdən hazırlıqlı olmaq, qazanılan nəzəri-təcrübi biliklərdən düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv etmək üçün maksimum səmərəli yararlanmaq əsasdır. Döyüşlər zamanı topların, tankların, reaktiv raketlərin, haubitsaların sərrast atəşi döyüşün taleyini həll edir. Təsadüfi deyil ki, hələ orta əsrlərdən müharibələrdə düşmənə qarşı toplardan geniş istifadə edilib. Artilleriya imkanlarına malik ordular möhtəşəmliyi və məğlubedilməzliyi ilə seçilib. Torpaqlarımızın işğalçılardan təmizlənməsində bizlərin də üzərinə böyük məsuliyyət düşdü. İllərdir təlimlərdə qazandığımız təcrübəni döyüş meydanında nümayiş etdirməyin zamanı gəlib çatıbdı. Vətən müharibəsində qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən uğurla gəldik. Bizlər digər qoşun növlərinin səmərəli hücumunu təmin etmək məqsədilə, düşmənin istehkam qurğularını, artilleriya batareyalarını, sığınacaqlarını, eləcə də digər strateji hərbi obyekt və nöqtələrini, canlı qüvvəsini sərrast atəşlə məhv etdik. Əminliklə deyə bilərəm ki, ən müasir silahlarla təchiz olunan Azərbaycan Ordusu bundan sonra da istənilən tapşırığı yerinə yetirməyə, torpaqlarımıza qarşı hər hansı təhdid olarsa, dərhal cavab verməyə qadirdir".

Söhbət əsnasında onu da öyrəndim ki, kapitan İgid Məmmədov döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb.

Top komandiri gizir Fərid Əliyevlə də söhbətləşdim. Uşaqlıqdan yaşadığı bölgədə gördüyü hərbçilər və düşmənə olan nifrəti ömür yolunu ordudan salıb. "Düşünürəm ki, hərbçi olmaq nə qədər çətin olsa da, ən şərəfli peşələrdən biridir. Hərbi mundiri daşımaq arzum düşmənə olan nifrətimdən yaranıb. Keçirilən təlimlər zamanı düşmən işğalında olan torpaqlarımızı azad edəcəyimiz, qisas alacağımız günü düşünürdüm. Peşəmlə hər zaman qürur duyuram. Vətən müharibəsinin iştirakçısı və qalib ordunun hərbi qulluqçusu olduğum üçün isə bu gün ikiqat qürur duyuram", - gizir F.Əliyev dedi.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunan sürücü-mexanik, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İlqar Bayramov da söhbətimizə qoşulur. "İllərdir həm gecə, həm də gündüz vaxtı keçirilən sürücülük məşqləri bizə döyüşü istənilən hava şəraitində aparmağımıza kömək oldu. Döyüşlər zamanı təyin olunan saatda, yerdə atəş mövqeyinin tutulmasında, həm də texnikanın döyüşə hazır vəziyyətə gətirilməsində peşəkarlıq göstərdik. Bütün normativlərə uyğun olaraq qarşıya qoyulan tapşırıqları vaxtında və dəqiq yerinə yetirdik. Aciz qalan düşmən döyüş meydanından qaçmaqla canını qurtarmağa çalışdı. Qazandığımız böyük zəfər bizləri çox sevindirir. İllərdir həsrətini çəkdiyimiz torpaqlar artıq əsl sahiblərinindir".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elgün Mirzəyev də döyüşlərdəki fəaliyyətinə görə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunan hərbi qulluqçulardandır. "Fəxr edirəm ki, 44 günlük Vətən müharibəsində iştirak edərək düşməndən xalqımızın qisasını alan oğulların sırasında mən də varam. Bir hərbçi üçün bundan sevincli heçnə ola bilməz. Xidmətə başladığım ilk gündən döyüşlərin iştirakçısı olmağımı arzulayırdım. Şükürlər olsun ki, bu arzum reallaşdı", - deyə Elgün Mirzəyev qürurla danışdı.

Heyət üzvü əsgər Emin Bəhrəmzadə də söhbətə qoşuldu. "Azərbaycan Ordusunun hərbi qulluqçusu olaraq bu gün ordumuzun peşəkarlığından, güc və qüdrətindən qürur duyuram. Bildiyiniz kimi, ötən il sentyabrın 27-də düşmən cəbhə boyu genişmiqyaslı təxribatlara əl atdı. Lakin şanlı ordumuzun qısa müddətdə həyata keçirdiyi sürətli əks-hücum əməliyyatı ilə xain düşmən məğlub edildi. Uzun illərdir müxtəlif mühəndis-istehkam qurğuları ilə möhkəmləndirdiyi sədlər qısa zamanda ordumuz tərəfindən darmadağın edildi. Uğurlu əks-hücum əməliyyatlarıyla tarixi ədaləti bərpa etdik. İşğalçı erməni ordusunu yurdumuzdan qovub çıxartdıq.

Astara rayonundan xidmətə çağırılan əsgər Məhəmməd Əlizadə döyüş hazırlığı məşğələlərini maraqla gözlədiyini qeyd etdi. "Vətən müharibəsində qazanılan təcrübənin komandirlərimiz tərəfindən bizlərə öyrədilməsi sevindirici haldır. Keçirilən dərsləri diqqətlə izləyir, döyüş maşınımızın hər bir xüsusiyyətini öyrənməyə çalışıram. Təəssüf edirəm ki, Vətən müharibəsi xidmətim dövrünə təsadüf etməyib. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə mən də iştirak etmək istəyərdim. Qardaşlarımızın canı, qanı bahasına azad edilən torpaqlarımızı müdafiə etmək, qorumaq, saxlamaq ən ümdə vəzifəmizdir".

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu" foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# “Dünyaya Vətən ucalığından baxırıq!..”





(Əvvəli 1-ci səhifədə)

Zabitlə söhbətdən sonra bölmənin təlimini izlədik. Şəxsi heyətin çevik hərəkəti və tapşırıqları qüsursuz yerinə yetirməsi onların yüksək döyüş hazırlığına malik olduğunu göstərirdi. Fasilə müddətində komandolarla söhbətləşmək imkanı tapdıq. Baş gizir Səftər Niftalıyev bildirdi ki, komando olmaq insandan möhkəm iradə, səbir və fiziki dayanıqlılıq tələb edir. "Adı çəkilən keyfiyyətlərin vəhdəti peşəkarlıq və müvəffəqiyyətin açarıdır. Keçirilən kursu mənimsədikdən sonra fiziki və nəzəri məşqlərlə qazandığımız təcrübələrlə bu gün bir komando olaraq gələcəyin bacarıqlı əsgərlərini yetişdiririk. Komando olmağın əsas şərtlərindən biri çətin relyefdə, istənilən hava şəraitində qarşıya qoyulan tapşırığı uğurla yerinə yetirə bilməkdir".

Səftərlə söhbət əsnasında öyrəndim ki, müsahibim 44 günlük Vətən müharibəsində iştirak edib. "Düşmənə olan nifrət mənim hərb sənətinə sevgimə təkan verən amildir. Böyüyəndə hərbçi (xüsusilə kəşfiyyatçı və xüsusi təyinatlı) olmaq istəmişəm, 2010-cu ildə Ağsu rayonundan həqiqi hərbi xidmətə çağırılmışam, arzusunda olduğum bölmədə xidmət keçmişəm və bu gün də arzusunda olduğum yerdəyəm. 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyi istiqamətində döyüşlərdə, o cümlədən 2020-ci ilin Vətən müharibəsində Cəbrayıl, Xocavənd və Şuşa rayonları istiqamətində gedən əməliyyatlarda iştirak etmişəm. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə qeyd etdiyim rayonların azad edilməsinə görə medallarla təltif olunmuşam. Böyük Zəfər tarixinin bir parçası olmaq mənə qürur verir. Şəhidlərimizin şəhadəti mübarək olsun, qazilərimizə Allah şəfa versin".

Təlim fəaliyyəti başa çatdıqdan sonra baş gizir Niftalıyevlə birlikdə şəxsi heyətlə tanış olduq. Əsgər Abbas İsayev də Vətən müharibəsi iştirakçısıdır. Müvafiq sərəncamlara əsasən "Döyüşdə fərqlənməyə görə", Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad olunmasına görə medalları ilə təltif edilib. "Doğma Qarabağımızın azad olunması tarixi əbədi tarixdir. Hər birimizin ömür boyu qürur duyacağımız tarixi zəfərdə canı ilə pay sahibi olan şəhidlərimizi ehtiramla anır, qazilərimizə şəfa diləyirəm. Biz də döyüşlərdə böyük ruh yüksəkliyi ilə iştirak etdik. Döyüşün ilk anlarında çox şeyi dərindən bəlkə də anlamırdım, çünki içimdə həyəcan hissi ilə sevinc hissi bir-birinə qarışmışdı. Yalnız anlamışdım ki, qələbəyə aparan yolun başlanğıcı bu gündür. Komandirlərimizin bizə böyük ruh yüksəkliyi ilə qələbənin uzaqda olmadığını söyləməsi bu gün kimi yadımdadır. O an bildim ki, artıq zaman yetişib və ədalətin bərpası üçün düşməni torpaqlarımızdan qovmalı, ona sarsıdıcı zərbələr vurmalıyıq. Hər kəs irəli getmək, tarixi ərazilərimizdən düşməni təmizləmək haqqında düşünürdü. Xalqımızın bizə olan inamını döyüşlər vaxtı hər an öz üzərimizdə hiss edirdik. Qələbəyə olan inamımızı kükrədən əsas səbəblərdən biri də məhz bizə olan etimadı layiqincə doğrultmaq istəyi idi. Bu gün bütün dünya Azərbaycan əsgərinin gücünü bilir. Üzərimizə düşən əsas vəzifə hərbi biliklərimizi tələb olunan səviyyədə saxlamaq, döyüş hazırlığımızı təkmilləşdirmək, qarşıya qoyulan tapşırıqların öhdəsindən bundan sonra da uğurla gəlməkdir".

"Üçrəngli bayrağımız bu gün işğaldan azad olunan ərazilərimizdə dalğalanır. Azərbaycan əsgəri olaraq tarixi torpaqlarımızı düşməndən təmizləyib Vətən torpaqlarına birləşdirmişik və ən müqəddəs arzumuza çatmışıq", - deyə söhbətə başlayan əsgər Rüstəm Ələkbərov da 44 günlük haqq savaşımızda iştirak edən əsgərlərimizdəndir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunan əsgər, həmçinin bildirdi ki, Vətənə layiqli övlad olmaq üçün canından keçməyi bacarmalısan. "Qələbəyə gedən yolda komandirlərimizlə çiyin-çiyinə vaxtından, relyefindən, iqlimdən və hava şəraitindən asılı olmayaraq düşmənə qarşı əməliyyatlarda iştirak edirdik. Yaşımın az olmasına baxmayaraq, müharibə mənə çox şeyi öyrətdi. Vətənin nə demək olduğunu o zaman anlayırsan ki, gözünə düşməni məğlub edib torpaqları geri qaytarmaqdan başqa heç nə görünmür. Qazanılan qələbə ilə şəhidlərimizin qisasını da aldıq, atalarımızdan bizə əmanət qalan torpaqlarımızı da düşməndən azad etdik".

Təlimdə fəal iştirak edən digər hərbi qulluqçular - əsgərlər Seymur Nəsibov və Elmar Süleymanovla həmsöhbət olduq. Onlar da qalib ordunun sıralarında, təcrübəli komandirlərlə birlikdə müqəddəs amala xidmət etməkdən qürur duyurlar. Günümüzün müasir tələblərinə uyğun qurulan ordumuzda keçirilən müxtəlif miqyaslı təlimlərin vacibliyindən danışan əsgərlərimiz, həmçinin qeyd etdilər ki, təlimdə əldə etdikləri praktiki və nəzəri biliklər sayəsində Vətən müdafiəçisi olaraq qarşıya qoyulan istənilən tapşırığın öhdəsindən gəlmək gücünə malik cəsur əsgər kimi yetişirlər.

Vətəni qorumaq ən ümdə vəzifədir. Vətəni qorumaq, onu gələcək nəslə tam şəkildə ötürməkdir, Vətəni qorumaq bayrağını zirvələrdə tutmaqdır, Vətəni qorumaq xalqını sevməkdir, onu layiqincə təmsil etməkdir. Vətən torpağının hər qarışında Vətəni qoruyaraq şəhid olanların, yaralananların qanı var və bundan sonra da Vətəni göz bəbəyi kimi qoruyacağıq. Axı dünyaya Vətən ucalığından baxırıq!..

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

## *Medallı igidlərimiz*

# “Hədəflər dəqiq vurulurdu”

***Vətən müharibəsində artilleriyaçılarımız da böyük hünər və qəhrəmanlıqlar göstərərək Ermənistan ordusunun mövqelərinə dəqiq və sarsıdıcı zərbələr vurdular. Bu zərbələr nəticəsində düşmən darmadağın edildi və 30 ilə yaxın əsarətdə olan torpaqlarımız 44 gün ərzində azad edildi.***



Artilleriyaçılarımızın sıralarında olanlardan biri də mayor Ayaz Baxışovdur. Zabit Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. İşğalçı düşmənin müşahidə məntəqələrinin, mövqelərinin, zirehli texnikalarının vurulmasında, dağıdılmasında və canlı qüvvəsinin məhv edilməsində şücaət və igidlik göstərib. Vətənin cəsur oğlu olaraq yurdumuzun erməni qəsbkarlarından azad olunması naminə biliyini, bacarığını əsirgəməyib. Daim əsgərləri qələbəyə, zəfərə ruhlandırıb.

“N” hərbi hissəsində mayor Ayaz Baxışovla görüşüb söhbət etdik, onun keçdiyi ömür və döyüş yollarını vərəqlədik. Zabit Ayaz Baxışov 1985-ci ildə Quba rayonunun Suduq kəndində anadan olub. Gələcəyin zabiti 1992-ci ildə şəhid Ümid Mıkayılovun adını daşıyan kənd orta məktəbinin birinci sinfinə gedib. Orta təhsilini başa vurduqdan sona Ayaz Baxışov 2003-cü ildə zabit olmaq arzusu ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, artilleriya ixtisasının sirlərinə dərindən yiyələnib. İlk günlərdən başlayaraq dərslərdə və təlimlərdə fəal iştirak edib. 2007-ci ildə ali hərbi təhsilini başa vuraraq "leytenant" hərbi rütbəsinə layiq görülüb. 2008-ci ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ixtisasartırma kursunu bitirərək "N" hərbi hissəsində artilleriya taqım komandiri kimi xidmətə başlayıb. Növbəti illərdə xidmətini müxtəlif hərbi hissə və birləşmələrdə uğurla davam etdirib.

Mayor Ayaz Baxışov ordumuz üçün böyük uğurlarla başa çatan 2016-cı ilin Aprel döyüşlərində də iştirak edib. İxtisasının bilicisi olan təcrübəli zabit həmin günlərdə Goranboy rayonunun Tapqaraqoyunlu və Tərtər rayonunun Talış kəndləri istiqamətində vuruşub.

Zabit Vətən müharibəsində də iştirak edib. Döyüş yolu Ağdamdan başlayıb. Sonralar Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə yüksək bacarıq və cəsarət göstərən A.Baxışovun komandiri olduğu artilleriyaçılar düşmən mövqelərinə toplardan dəqiq zərbələr yağdırıblar.

- Ağdam istiqamətində üç gün döyüşdük, - deyə zabit keçdiyi şərəfli döyüş yolundan qısaca söhbət açdı. - Bu istiqamətdə düşmən hücumlarının qarşısı alındıqdan sonra bizi Füzuli rayonuna göndərdilər. Artilleriyaçılarımız təyin olunmuş ərazilərdə döyüşlərə atıldılar. Qısa müddət ərzində verilmiş koordinatlar üzrə dəqiq icra olunmuş artilleriya atışları döyüşlərdə uğurların qazanılmasını təmin etdi. Çünki atılan mərmilərin hamısı düşmən hədəflərinə dəqiq dəyirdi. Qısa müddət ərzində işğalçıların neçə-neçə zirehli texnikasının, artilleriya qurğularının, müşahidə məntəqələrinin külü göyə sovruldu, onlarla canlı qüvvəsi məhv edildi. Bu döyüşlərdə Azərbaycan zabitinin, əsgərinin gücünü, qüdrətini görən düşmən geri çəkildi. Beləcə, işğalçılar üzərində uğurlu döyüşlərimiz başladı. Əks-hücum əməliyyatlarında artilleriyaçılarımız üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldilər.

Füzuli rayonu erməni qəsbkarlarından azad olunduqdan sonra mayor A.Baxışovun komandiri olduğu artilleriyaçılar Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonlarının kəndləri uğrunda mərdliklə döyüşdülər.

Vətən müharibəsində göstərdiyi igidlik və şücaətə görə mayor Baxışov Ayaz Bəhram oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medallarına layiq görülüb.

Mayor Ayaz Baxışov iki uşaq atasıdır. Övladları atalarının qəhrəmanlığı və igidliyi ilə fəxr edirlər. Zabiti tanıyanların hamısı onunla öyünəcək və adını həmişə qürurla çəkəcəklər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# “Aviatəmir zavodu ölkəmizin müdafiə qüdrətinin artırılmasına yönələn fəaliyyətini inamla davam etdirir”

***Azərbaycan Ordusunun xüsusi qoşun növü sayılan Hərbi Hava Qüvvələrinin təməli 1919-cu ildə qoyulub. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra ordu quruculuğu istiqamətində apardığı uğurlu islahatlar nəticəsində Hərbi Hava Qüvvələri də formalaşmağa başladı. Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna verdiyi töhfələrin nəticəsi olaraq bu gün ən müasir təyyarə və helikopterlərlə arsenalını zənginləşdirən Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunları Azərbaycan səmasını tam gücü ilə qorumağa qadirdir. HHQ-nin arsenalına qırıcı, hücum, nəqliyyat, təlim və çoxməqsədli ən yeni təyyarələr və helikopterlər daxildir. Müxtəlif ölkələrin istehsal etdiyi təyyarələr artıq ordu sıralarımızdadır. Bundan əlavə, İkinci Qarabağ müharibəsi zamanı istifadə olunan Bayraktar və digər pilotsuz uçuş aparatları HHQ-nin arsenalındadır.***



Dövlətimizin ordumuza göstərdiyi diqqət və qayğının nəticəsində maddi-texniki bazasını və döyüş qabiliyyətini durmadan artıran Hərbi Hava Qüvvələri Vətən müharibəsi zamanı da üzərinə düşən döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirdi. Müharibənin ilk günündən onlar döyüş uçuşlarını müvəffəqiyyətlə yerinə yetirərək, düşmənin hərbi bazalarını, döyüş mövqelərini, zenit-raket komplekslərini, radio-elektron mübarizə vasitələrini, silah-sursat anbarlarını və digər mühüm hərbi infrastruktur obyektlərini darmadağın etdilər. Düşmənə hərbi texnika və canlı qüvvə sarıdan ağır zərbələr vuran "dəmir şahinlər"imiz işğalçıların uzun illərdir betonla bərkitdikləri bunkerlərini, istehkam qurğularını məhv edərək, piyada qoşunlarının irəliləməsinə zəmin yaratdılar. Qazandığımız tarixi Zəfər onu göstərdi ki, müasir döyüşü Hərbi Hava Qüvvələri olmadan təsəvvür belə etmək mümkün deyil. Zaman keçdikcə texnikalar yeniləri ilə əvəz olunur, aviasiya texnologiyaları sürətlə dəyişir. Bu inkişaf qaçılmazdır və müsbət nəticələrə gətirib çıxardır. Buna misal olaraq Azərbaycanın "Dəmir yumruq" əks-hücum əməliyyatını gətirmək olar.

44 gün davam edən Vətən müharibəsi ordumuza Qələbə yaşatmaqla, uzun illər həsrətində olduğumuz doğma torpaqlarımızı xalqımıza geri qaytardı. Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) Komandanı general-leytenant Ramiz Tahirov Zəfər qazandığımız müharibədən söz açarkən aviasiya üçün hazırlanan xüsusi əməliyyat planını "Qarabağ mücrüsü" adlandırıb.

Pilotlarımızın uğurlu döyüş əməliyyatlarından danışarkən, onları uçuşa hazırlayan texniki işçi heyətlərinin fəaliyyətini də qeyd etmək lazımdır. Çünki təyyarə səmaya p qalxmazdan əvvəl onun uçuşa hazırlığı, texniki sazlığı, bir sözlə, bütün zəruri işlər texniki heyət tərəfindən həyata keçirilir. Həmçinin hər bir texnika kimi, təyyarələrin də bəzən təmirə ehtiyacı olur. Hər növ maddi-texniki bazayla təmin edilən Azərbaycan Ordusu bu işin öhdəsindən də öz imkanları hesabına layiqincə gəlir.

Bu istiqamətdə hələ Sovetlər zamanından təqdirəlayiq iş aparan, ölkəmizdə fəaliyyət göstərən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Aviatəmir zavodunu qeyd etmək olar. Zavodun fəaliyyəti və görülən işlərlə yaxından tanış olmaq üçün ora yollanırıq. Zavod Hərbi Hava Qüvvələrinin bilavasitə tabeliyində fəaliyyət göstərir. Nəzarət-buraxılış məntəqəsində bizi salamlayan növbətçi gizir sənədlərimizi yoxladıqdan sonra rəhbərliyə məruzə edir. Onun müşayiəti ilə zabit Elman Əliyevin yanına gəlirik. Qeyd edək ki, polkovnik Elman Əliyev Vətən müharibəsinin iştirakçılarındandır. Döyüş əməliyyatlarında hərbi hissə qarşısında qoyulan tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, döyüş meydanında şəxsi igidlik və şücaət göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Zabit Müdafiə Nazirliyinin Aviasiya Təmir Zavodunun hal-hazırda Azərbaycanda ən böyük aviatəmir zavodu olduğunu bildirir. "Aviasiya Təmir Zavodunun təməli 1954-cü ildə qoyulub. Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələri tərəfindən sertifikatlaşdırılan zavodda hazırda təyyarə mühərriklərinin əsaslı təmiri həyata keçirilir. Əlavə olaraq hərbi təyyarə



və helikopterlərə bütün növ texniki xidmət göstərilir".

Zabit Elman Əliyev bizi əvvəlcə qərargahdakı muzeylə tanış edir. Muzeydəki komponentlərin zavodun tarixi fəaliyyətini tam əks etdirdiyini bildirərək həyata keçirilən uğurlu layihələrdən söz açır. "Zavodumuz 1948-1973-cü illər ərzində həmin dövrlərdə mövcud olan müasir təyyarələrin və onların mühərriklərinin təmirini aparırdı. 1973-cü ildən isə təyyarələrin və onların mühərriklərinin təmiri işini daha da təkmilləşdirən zavod SSRİ-də fəaliyyət göstərən ən böyük Aviatəmir zavodu kimi fəaliyyət sahəsini sürətlə genişləndirərək, xarici sifarişçilərin layihələrini də yerinə yetirməyə başlayıb. Müstəqillik qazandıqdan sonra isə Müdafiə Nazirliyinin "N" hərbi hissəsi kimi fəaliyyətini davam etdirir", - deyə zabit bildirir.

Zabit sözlərinə davam edərək hələ yenicə müstəqillik qazandığımız çətin illərdə də zavodun fəaliyyətinin səngiməmdiyini vurğulayır. Cəbhədə qızğın döyüşlərin getdiyi bir zamanda zavodun fəaliyyətinə daha çox ehtiyac duyulduğunu qeyd edir. "Zavod Birinci Qarabağ müharibəsində döyüş zədələri alan təyyarələrin və helikopterlərin yüksək keyfiyyətlə təmiri və bərpası işlərini həyata keçirib. Müstəqilliyimizi bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin bütün sahələrə olduğu kimi ordu quruculuğunun inkişafına da göstərdiyi yüksək diqqət və qayğı nəticəsində öz fəaliyyət sahəsini və imkanlarını dəfələrlə genişləndirib.



Zavod uğurlu fəaliyyətinə görə "Müəssisənin hərbi akkreditasiya sertifikatı" qazanıb. Aviatəmir zavodunun uğurlu layihələrindən biri "Su-25" təyyarəsinə nümayiş uçuşları üçün səmada bayraq rəngini əks etdirən "xüsusi qurğunun hazırlanması" olub. Bu layihə mühəndislərimiz tərəfindən işlənib hazırlanaraq müvəffəqiyyətlə sınaqdan keçirilib. Hal-hazırda Müdafiə Nazirliyinin Aviatəmir zavodu öz fəaliyyətini uğurla davam etdirərək, müasir tələblərə cavab verən layihələr həyata keçirir. Həmçinin müxtəlif ölkələrin aviatəmir zavodları və Türkiyə Silahlı Qüvvələrinin ASELSAN şirkəti ilə imzalanan qarşılıqlı əməkdaşlıq müqavilələri əsasında təyyarələrin və mühərriklərinin birgə təmiri işləri aparılır".

**(Ardı 5-ci səhifədə)**

# "Aviatəmir zavodu ölkəmizin müdafiə qüdrətinin artırılmasına yönələn fəaliyyətini inamla davam etdirir"

(Əvvəli 4-cü səhifədə)



Aviatəmir zavodunun yaranmasından bu günə kimi keçdiyi yol və gördüyü işlər haqqında ətraflı məlumat verən zabit bizi zavodda fəaliyyət göstərən sexlərlə tanış edir. İstehsalat sexlərində çalışan hərbi qulluqçuların və mülki işçilərin öz işinin peşəkarı olduqları hiss olunur. Getdiyimiz hər sexdə yüksək nizam-intizamın, səliqə-sahmanın olduğunu və işin səmərəli təşkilini görürük.

Sexlərdə təyyarələrin gövdəsinin, aviasiya cihazlarının, rabitə vasitələrinin, aviasiya silahları avadanlıqlarının təmiri və yoxlanılması, reaktiv mühərriklərin sökülməsi və təmir olunması işləri həyata keçirilir. Bütün işçilər xüsusi geyim formasında daxili qaydalar çərçivəsində çalışırlar. Onlarla həmsöhbət olduqda hiss edirsən ki, hər biri işinin peşəkarı olmaqla yanaşı, sənətinə bağlı insanlardır. Uzun illərdir bu zavodda işləyən mülki işçi Rzabala Rzayevi tanıyırıq. İşdən əl saxlayan Rzabala fikirlərini belə ifadə edir: "Hər bir insan üçün çalışdığı iş yeri onun ikinci evi kimidir. İllərdir bu zavodda işləyirəm. Burada səmimi və mehriban kollektivimiz var. Sağ olsun komandirimiz də bizimlə mütəmadi maraqlanır, qayğısını əsirgəmir. Dövlətimizə, ordumuza xidmət etmək hər birimiz üçün qürurvericidir".



Həmkarının sözlərinə qoşulan Niyazi Məmmədov da iş kollektivindən və rəhbərlikdən razılığını bildirir. Niyazi radio-mexanik kimi fəaliyyət göstərir. Üzərinə düşən işləri məsuliyyətlə icra etdiyini, zavodun uğurları üçün əlindən gələni əsirgəmədiyini bildirir. Gördükləri işin əhəmiyyətini yaxşı dərk edərək, tapşırılan işlərin öhdəsindən layiqincə gəldiklərini vurğulayır.

...Ordu, xalq birliyinin möhkəmliyini və dayanıqlılığını burada da görürük. Vətən müharibəsi zamanı Qələbəmizi şərtləndirən əsas amillərdəndi bu birlik. Xalqın mənəvi dəstəyi əsgər və zabitlərimizin gücünə-güc qatır, ordumuzu yenilməz edirdi. Müdafiə Nazirliyinin Aviatəmir zavodunda da hərbçilərimizlə mülki şəxslər çiyin-çiyinə xidmət aparır. Dövlətimizin, ordumuzun daha da güclənməsinə xidmət edən hansısa sahədə layiqli iş görmək də, elə vətənpərvərlikdir. Zavodun kollektivində də bu vətənpərvərliyi hər addımda duymaq olur. Onlarla söhbətlərimiz düşüncələrimizi bir daha təsdiq edir.

Başqa bir sexdəyik. Burada reaktiv mühərriklərin sökülməsi və təmir olunması həyata keçirilir. Sex rəisi kapitan İsmayıl Həsənli ilə salamlaşırıq. Zabit bu istehsalat sexində görülən işlər haqqında məlumat verərək, işçilərindən razılıq edir, hər birinin bacarıqlı, işinin öhdəsindən məharətlə gələn ustalar olduğunu qeyd edir. İsmayıl bizi çilingərlər Eldar Eldarov və İbrahim Əliyevlə tanış edir və onların düşüncələrini öyrənirik. Onlar ölkəmizdə fəaliyyət göstərən ən böyük Aviatəmir zavodunda işləməkdən qürur duyduqlarını bildirirlər.

"Burada hərbçilərimizlə bir arada xidmət edirik. Bu işin qürurlu tərəfi də ondadır ki, özümüzü hərbçilər kimi hiss edir, ordumuzun maddi-texniki bazasının möhkəmlənməsi istiqamətində zəhmətimizi ortaya qoruyuq. Ordumuz hər birimizin qürur mənbəyi, güvənc yeridir. 30 ildən sonra bizə Böyük Qələbə sevinci yaşadan Müzəffər Ali Baş Komandanımıza və hərbçilərimizə çox sağ ol deyirik. Bu qələbəmizdə pay sahibi olan Hərbi Hava Qüvvələrinin hərbçiləri ilə bir arada xidmət etməkdən sevincliyik, Allah bütün hərbçilərimizi qorusun", - İbrahim və Eldar fikirlərini belə ifadə edirlər.

Digər işçilər də ordumuzdan qürurla danışır, xalqın ordumuza olan güvəncinin sonsuz olduğunu vurğulayırlar. "Gördüyümüz işin mahiyyətini yaxşı dərk edirik. Təmir etdiyimiz təyyarələrlə peşəkar pilotlarımız səmalarımızı inamla qoruyurlar. Biz fəxr edirik ki, azərbaycanlıyıq. Fəxr edirik ki, sərhədlərimizi qurudan, havadan, sudan inamla qoruyan rəşadətli ordumuz var. Ərazi bütövlüyümüz uğrunda son damla qanına qədər qəhrəmancasına döyüşən igidlərimiz hər kəsə örnəkdir. Bu qəhrəmanlıq tarixi gələcəyimiz üçün mirasdır. Bütün dünya bizim zabitlərimizin, əsgərlərimizin döyüş əzmindən danışır. Belə igidlərlə bir sırada çalışmaq bizim üçün fərəhlidir", - işçilər deyirlər.

Hərbçi kimi vətəndaşlarımızdan belə xoş sözlər eşitmək bizi sevindirir. Bu, xalqımızla ordumuz arasında sıx bağlılığın olduğunu bir daha göstərir. Əminliklə deyə bilərik ki, bu gün çalışdığı sahədən və peşəsindən asılı olmayaraq, hər kəs ordumuzla, əsgərimizlə qürur duyur. Bu xoş düşüncələrin ağuşunda polkovnik Elman Əliyevlə növbəti istehsalat sexinə yollanırıq. Qeyd etdiyimiz kimi, tarixi zəfərimizlə başa çatan "Dəmir yumruq" əməliyyatının iştirakçılarından olan zabit Elman Əliyevlə müharibə günlərindən söhbətləşirik. Zabit Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun əsrlər boyu xatırlanacaq şanlı Zəfər qazandığını qeyd edir: "Biz qələbənin sevinci ilə yanaşı, həm də onun qürurunu yaşayırıq ki, gələcək nəsillərə şanlı tarix qoyduq. Rəşadətli Azərbaycan Ordusunun qəhrəman əsgərləri Vətən sevgisi, igidliyi, şücaəti ilə tarix yazdı, tarixə yazıldılar. Dövlətimizin gücünü və qüdrətini, ordumuzun yenilməzliyini bütün dünyaya göstərdilər. Bu müqəddəs yolda şəhidlik zirvəsinə ucalanlara Allahdan rəhmət, qazilərə şəfa diləyirəm".

...Böyük bir sexin qarşısındayıq. Qələbəmizdən, ordumuzun güc və qüdrətindən ağız dolusu danışan zabitin sözlərini dərin bir hüzn əvəzləyir. Zabit E.Əliyev nəfəsini dərib, qəhərli səslə bu sexdə həmkarları şəhid pilotlar Vətən Müharibəsi Qəhrəmanı polkovnik Zaur Nudirəliyevin və polkovnik-leytenant Ramiz Qasımovun da bir vaxtlar idarə etdiyi Su-25 hücum təyyarələrinin, Mi-17 hücum helikopterlərinin və digər texnikaların sökülməsi, təmiri və yığılması işlərinin aparıldığını bildirir. Onların əziz xatirəsinin daim ehtiramla yad edildiyini vurğulayır. Zabiti düşüncələrindən sex rəisi Elçin Həmidov ayırır. O, nizamnamə çərçivəsində məruzə edir və salamlaşıb sexə daxil oluruq. Geniş sahəsinə görə bu sex digərlərindən fəqrlənir. İçəridə sıra ilə düzülmüş təyyarə və helikopterlər var. Hər təyyarənin ətrafında iş aparan bir neçə texnik görünür. "Burada çalışan işçilərin hər biri ayrı sahə üzrə mütəxəssisdir. Təmirə gələn təyyarələr ilk olaraq bizim sexə daxil olur. Burada hissələr ayrılaraq müvafiq istehsalat sahələrinə göndərilir, təmir-bərpa işləri görülür, sınaqdan keçirilir. Bu mərhələlərdən sonra tam işlək vəziyyətdə seximizə qaytarılan hissələr hərbi texnikalara montaj olunur ", - deyərək istehsalat sexinin fəaliyyətindən məlumat verən Elçin Həmidov bizi görülən işlərlə tanış edir. Təyyarələrin yanında fəaliyyət göstərən işçi qruplarının necə həvəslə və sevgiylə çalışdıqlarını görürük. Müşahidəmiz əminliklə deməyə əsas verir ki, burada düzgün və səmərəli iş təşkil olunur. İşin gedişatına mane olmamaq üçün sexin fəaliyyəti ilə tanışlığımızı başa vurub, hər birinə işlərində müvəffəqiyyətlər arzulayırıq.



Polkovnik Elman Əliyev sonda qeyd edir ki, Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində zavodda sürətlə yenidənqurma, tikinti və təmir işləri aparılır. Həmçinin təyyarə və mühərriklərinin istismar diapazonunun genişləndirilməsi məqsədilə zavodun mütəxəssisləri və mühəndisləri ilə birlikdə yeni proqramlar hazırlanır, layihələr həyata keçirilir. "Bütün texniki tələblərə cavab verən və istehsalat həcmini günbəgün artıran Aviatəmir zavodunun şəxsi heyəti rəhbərlik tərəfindən verilən istənilən işin öhdəsindən uğurla gələrək, müəssisənin daha da inkişafına, iqtisadi əlaqələrin genişlənməsinə, ölkəmizin müdafiə qüdrətinin artırılmasına yönələn fəaliyyətini inamla davam etdirir", - deyə zabit bildirir.

Zavodun ərazisi və fəaliyyəti ilə tanışlığa görə dərin minnətdarlığımızı bildirərək bu şərəfli xidmətlərində kollektivə uğurlar, yüksək nailiyyətlər arzulayaraq xudahafizləşirik.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

*İctimai-siyasi hazırlıq*

# "Döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsində ictimai-siyasi hazırlıq dərslərinin əhəmiyyəti böyükdür"

*Döyüşdə uğur əldə etməyin əsas məqsədlərindən biri şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə olması, möhkəm nizam-intizam, qorxmazlıq, düşmənə nifrət və ruh yüksəkliyidir. Ona görə ordu sıralarında bu amillərin formalaşmasında əhəmiyyətli rol oynayan ictimai-siyasi hazırlıq dərslərinə xüsusi önəm verilir.*



Günün nizam qaydasına uyğun olaraq "N" hərbi hissəsində şəxsi heyətin ictimai-siyasi hazırlıq məşğələsinin keçirilməsi prosesini izlədik. Dərslərin keçirilməsi üçün nəzərdə tutulan ideoloji otaq müvafiq standartlara uyğun formalaşdırılıb. Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ön xətdə şəxsi heyətlə görüşlərini əks etdirən və tarixi qələbəmizlə başa çatan Vətən müharibəsindən fotoşəkillər, dövlət atributları hər birimizdə xoş təəssürat yaratdı.

Dərsin bitməsini gözlədik. Məşğələ rəhbəri baş leytenant Abasəli Bəşirov şəxsi heyətə günün mövzusunu - "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür" - bildirərək dərsə başladı. O, bildirdi ki, Azərbaycan xalqının tarixində ən yaddaqalan, ən şərəfli günlərdən biri - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.

- 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Bu əlamətdar günün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilib, - baş leytenant Bəşirov dedi. Məşğələ rəhbəri bildirdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Ali Baş Komandan İlham Əliyev martın 16-da Bakıda "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 8 fevral 2006-cı il tarixli sərəncam imzaladı. Heç şübhəsiz, xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində bu yeni addım Azərbaycanın tarixində mühüm bir hadisə oldu, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynadı.

Zabit onu da qeyd etdi ki, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində ictimai-siyasi hazırlıq dərslərinin əhəmiyyəti böyükdür. Keçirilən dərslərlə şəxsi heyətin hərb tarixi biliklərini zənginləşdirir, həmçinin onlarda ruh yüksəkliyi yaradırıq.

Ağcabədi rayonundan ordu sıralarına çağırılan əsgər Şükür Abbasov bildirdi ki, savadlı və təcrübəli zabitlərimizin köməkliyi ilə tarixi biliklərimizi artırırıq. "Torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizi, Vətən müharibəsində düşmənə göz açmağa imkan verməyən qəhrəmanlarımızı tanıyırıq. Məhz onlar sayəsində illərdir işğalda qalan torpaqlarımız azad edildi. Xalqımızın qisası alındı. Regionun ən güclü ordusu olan Azərbaycan Ordusunun sıralarında xidmət etdiyim üçün fəxr edirəm".

Əsgər Kamil Qarayev dedi ki, komandirlərimizin rəhbərliyi altında keçirilən bütün dərsləri mükəmməl dərəcədə mənimsəməyə çalışırıq. "Məhz onların peşəkarlığı nəticəsində düşmən darmadağın edildi. Rəşadətli ordumuz düşmənin illərlə yürütdüyü işğalçılıq siyasətinə son qoydu".

Əsgər Musa Əlizadə Vətən uğrunda hər an canından keçməyə hazır olduğunu dedi. "Buna görə hər birimiz Vətən qarşısında övladlıq borcumuzu layiqincə yerinə yetirməyə çalışırıq. Komandirlərimizin rəhbərliyi ilə hərb tarixi haqqında biliklərimizi artırırıq. Keçirilən təlimlər, döyüş və fiziki hazırlıqların sayəsində əsl döyüşçü kimi formalaşırıq. Bundan sonra da xidmətimizə məsuliyyətlə yanaşacaq, verilən bütün əmr və tapşırıqları sözsüz yerinə yetirəcəyik".

Əsgərlər Kənan Paşazadə, Tərlan Məlikov, Mirnicat Ağayev, Surxay Bağırov və başqaları ictimai-siyasi hazırlığın əhəmiyyətindən, xidmətlərindən, şanlı Qələbə ilə başa çatan Vətən müharibəsindən söhbət etdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı birgə tədbirlər planı imzalayıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında 2022-ci il üçün birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək tədbirlərdə hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar bir sıra görüşlər keçiriləcək, eləcə də müxtəlif mövzularda məruzələr dinləniləcək və fikir mübadiləsi aparılacaq.

## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğunun birgə tədbirlər planı imzalanıb

2022-ci ildə Azərbaycan Ordusunda hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla nəzərdə tutulan görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlər həyata keçiriləcək.

## Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında illik fəaliyyət planı imzalanıb

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2022-ci il üçün birgə fəaliyyət planı imzalanıb. Sənədə əsasən keçiriləcək tədbirlərin yeri, icra vaxtı, icraya məsul qurumlar və şəxslər müəyyən edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

*Nümunəvi xidmət*

# 44 günlük qətiyyətli döyüş Böyük Qələbə ilə tamamlandı

Böyük Qələbəni bizə yaşadan oğullarla tanış olmaq üçün işğaldan azad olunan rayonlarımızdan birinə yollanırıq. Artıq bir ildən çoxdur ki, Vətən müharibəsinin iştirakçıları ilə həmsöhbət olur, onların döyüş və həyat yolunu qələmə alır, xatirələrini dinləyirik.

Savaş qələbə ilə başa çatıb. Qışın şaxta-sazağında, yayın istisində xidmət edən oğullarımızdan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rasim Nağıyevdir. Gənc olmasına baxmayaraq kifayət qədər təcrübəli və yüksək hərbi intizama malik müsahibim həm də komandirlərin rəğbət bəslədiyi, qarşıya qoyulan tapşırıqları vaxtında və dəqiq yerinə yetirən hərbi qulluqçulardandır. "Qarış-qarış azad olunan tarixi ərazilərimizi öz qanı və canı ilə Vətən torpağına birləşdirən oğulların ruhu şad olsun, qazilərimizə Allah şəfa versin", - deyə Rasim söhbətə başladı. "O döyüşü yaşayanlar bilirlər ki, hər qarışın azad olunması üçün gecə-gündüz, müxtəlif relyeflərdə, dəyişkən hava şəraitində düşmənə qarşı mübarizə aparılıb. Müharibə filmlərdə göründüyü kimi deyil. Güc, iradə, cəsarət və ən əsası hazırlıqlı olmaq gərəkdir. Döyüşə hazır olduğun qədər gərək özünü də, şəxsi heyəti də qorumağı bacarasan və hər hansı baş verə biləcək təhlükəyə vaxtında reaksiya verə biləsən. Ərazilər əsasən dağlıq relyef olduğundan, hər hansı iriçaplı mərminin qayaya çırpılması zərərvurma dərəcəsini daha da artırırdı. Ona görə də döyüşün istər düzənlikdə, istərsə də dağlıq ərazidə aparılmasının xüsusi incəlikləri var ki, müharibədə biz bu təcrübələri uğurla tətbiq etdik. Təcrübəli komandirlərimizin sayəsində düşmənin əks-hücumlarının da qarşısını qətiyyətlə aldıq. Hər qoşun növü öz üzərinə düşən vəzifənin öhdəsindən uğurla gəldi. Bir sözlə, rütbəsindən, vəzifəsindən asılı olmayaraq hər birimiz dəmir yumruq kimi birləşdik, bir amal uğrunda döyüşdük - Vətən sevgisi idi bu amalımızın kökündə duran əsas şərtlərdən biri. Heç kim qisasdan, xalqımızın qəlbində qubara çevrilən yurd həsrətinə son qoymaqdan başqa bir şey fikirləşmirdi. Qısa müddətdə döyüş meydanında böyük uğur qazanan rəşadətli ordumuz ərazi bütövlüyümüzü təmin etdi, şəhidlərimizin qisasını aldı. Azərbaycan əsgəri polad iradəsi, yüksək döyüş ruhu ilə qazandığı zəfər nəticəsində təkcə regiona deyil, dünyaya vətənpərvərlik nümunəsi göstərdi. 44 günlük qətiyyətli döyüş Böyük Qələbə ilə tamamlandı".




Hazırda işğaldan azad olunan əzəli və əbədi torpaqlarımızda xidmət etmənin necə bir hiss olduğunu soruşduqda həmsöhbətimiz qeyd etdi ki, Vətənin hər qarışı gözəldir. Onun bu peşəyə yiyələnməsində birbaşa rol oynayan faktorlardan biri də düşməni torpaqlarımızdan qovmaq istəyi olub. "Gənc yaşlarımdan istər evdə, istərsə də məktəbdə erməni canilərinin vəhşiliklərini dinləmişəm. 44 günlük Zəfər tarixinin kiçik bir parçası olmaq da, işğaldan azad olunmuş səfalı ərazilərimizdən birində xidmət aparmaq da böyük qürurdur. Vətəndəyik... Bu gün şanlı bayrağımız bütün işğaldan azad edilən ərazilərimizdə dalğalanır. Bir vətəndaş olaraq qarşımızda duran əsas məqsədlərdən biri şəhidlərimizin qanı ilə bütünləşən Vətən torpağını göz bəbəyimiz kimi qoruyub, gələcək nəslə ötürməkdir. Bu gün hər bir azərbaycanlı ötən ilin 27 sentyabrında başlayan və 44 gün davam edən qəhrəmanlıq tarixi ilə qürur duyur. Bu gün Ali Baş Komandanımızın və xalqımızın bizə inamı tamdır, biz də öz növbəmizdə göstərilən etimadı layiqincə doğrultmalı, müqəddəs vəzifəyə məsuliyyətlə yanaşmalı, xidmətimizi düzgün təşkil etməliyik".

Xalqın qüruru, inamı olan döyüşçülərimizlə həmsöhbət olduqdan sonra bir daha əmin oluram ki, üreyi Vətən eşqi ilə döyünənin döyüş meydanında ayağı büdrəməz, biləyi bükülməz. Əziz hərbçilərimiz Qələbə və uğurlarınızın bol olması diləyi ilə...

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçularımız beynəlxalq təlimlərdə iştirak edəcəklər

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlər davam etdirilir.***

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 2022-ci tədris ilində hərbi qulluqçularımızın 30-dan artıq beynəlxalq təlim və yarışlarda iştirakı planlaşdırılır.

"Eternity-2022", "EFES-2022", "Sarsılmaz Qardaşlıq-2022", "Qış təlimi-2022", "Beynəlxalq Ordu Oyunları-2022" və digər beynəlxalq təlim və yarışlar bura cəlb ediləcək hərbçilərimizin qarşılıqlı təcrübə mübadiləsi nəticəsində bilik və bacarıqlarının artırılmasına müsbət təsir edəcək.

Bundan başqa cari il ərzində hərbi qulluqçularımızın müxtəlif beynəlxalq seminar və konfranslarda iştirakı da nəzərdə tutulub.

*Düşüncələr*

# Zəfərin qüdrəti

Vətən müharibəsindən əvvəl ön xətdə, səngərlərdə döyüş növbətçiliyi aparan əsgərlərimizlə söhbətləşəndə Vətən kəlməsinin müqəddəsliyini böyük duyğusallıqla yaşayırdıq. Biz də, əsgərlərimiz də. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adını daşıyan postda əsgərlərdən biri demişdi ki, babam Birinci Qarabağ müharibəsində yerli özünümüdafiə batalyonunun tərkibində döyüşüb, atam atəşkəs dövründə hərbi xidmətdə olub. "Məni hərbi xidmətə yola salanda babam köksünü ötürüb dedi: Nə mən, nə də sənin atan qələbənin əsgəri ola bilmədik. Kaş Ali Baş Komandanımız sən xidmətdə olanda döyüş əmri verə, sən əsgər kimi, atanla mən əsgərləşən vətəndaş kimi döyüşlərdə iştirak edək. Bir ailədən üç əsgər. Həm də üç qalib əsgər. Mən də, əsgər yoldaşlarım da babamın istəyi olan həmin döyüş əmrinin intizarındayıq".

Əsgərin düşüncələrinin işığı düşüncələrimə süzülmüşdü. Əminliklə göy üzünə baxmışdım: Azərbaycan əsgərinin döyüş ruhu könlümü telləndirmişdi. Onda həmin əsgərə xitabən demişdim:

Döyüşçünü uğurlayar
hər el, əsgər, oba, əsgər.
Qalibiyyət bayrağının işığında
Döyüşlərdən evə dönər
nəvə-əsgər, ata-əsgər,
baba-əsgər...

Mayor Ruslan Novruzov əminliklə demişdi ki, Azərbaycanımızda belə nəvələr-babalar çoxdur. Onda bu kəlmələrin qürurunu əsgərlərlə nəfəs-nəfəsə yaşamışdıq...

Vətən müharibəsi başladı. Azərbaycan əsgəri düşmən sədlərini darmadağın etdi. İlkin qələbələr qazanıldı. Bu qələbələr Azərbaycan əsgərinin yüksək olan döyüş əzmini, qələbə ruhunu daha da yüksəltdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dedikləri işğalçı dövlətə gizlin-aşkar havadarlıq edən dövlətlərə bir gerçəkliyi yaşatdı: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Ərazi bütövlüyümüz bərpa olundu. 2020-ci ilin 8 noyabrı Zəfər Günü kimi tarixə düşdü...

İşğaldan azad edilmiş rayonlarımızda quruculuq işləri başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu rayonlara səfərləri quruculuq işlərinin coğrafiyasını genişləndirirdi, dinamikasını artırırdı.

İşğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilmiş Zəfər yolu, Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, 20-dən artıq yaşayış məntəqəsini əhatə edir; bu avtomobil yolu böyük quruculuq işlərinin başlanğıcı oldu.

Zəngilan rayonunun Ağalı kəndi "Ağıllı kənd" layihəsi əsasında yenidən qurulur. Bu kənddə aparılan tikinti işlərini mən də görmüşəm. Hələ işğaldan əvvəl gördüyüm kənd deyildi bu kənd. Bu kəndin görkəmi də, evlərin düzümü də özü boyda könül xoşluğudu. Yaradılacaq infrastrukturlar ona dünyəvi şöhrət gətirəcək. Yaxın vaxtlarda bu şöhrətin işığı düşüncələrimizin haləsinə dönəcək. Bu tikinti işğaldan azad edilən rayonlarımızda quruculuq işlərinin nəticələri haqqında ən gözəl zəmanətdir. Azərbaycan cəmiyyəti də, xarici dövlətlər də quruculuq işlərini Vətən müharibəsində qazanılan Zəfərin məntiqi davamı bilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində xalqa müraciətində demişdi: "...gün gələcək ... bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal edilmiş və azad olunmuş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır". Bu kəlamlar indi məsuliyyətlə gerçəkləşdirilir. Azərbaycan əsgəri Vətən müharibəsində Zəfər qazananların döyüş yolunu Zəfərdən sonrakı davamçıları kimi ərazi bütövlüyümüzü böyük məsuliyyətlə qoruyur.

Qubadlıda əsgərlərin əhatəsindəydik. Vətən müharibəsindən danışmışdıq, Zəfərdən danışmışdıq. Əsgər Kənan Rzayev demişdi ki, Vətən müharibəsində mən də, əsgər yoldaşlarım da məktəbli idik. Döyüşlərdə iştirak etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbəsinə müraciət etmişdik. Ehtiyac olmadığına görə xahişimizə əməl etmədilər. Dövlət başçısının bu kəlamlarından çağırışçı olanda da qürurlanmışdıq, hərbi xidmətdə də qürurlanırıq.

İşğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri uğurla davam edir. Yol boyunca gördüklərimizi xatırlatmışdım: yol çəkilir, yollarda yağışdan-qardan yarana biləcək sellərin yolu dağıtmaması üçün tunellər qurulur. Bu böyük layihələrin kiçik bir hissəsidi. Kiçik bir hissə bizi bu səviyyədə qürurlandırırsa, quruculuq işləri başa çatanda necə qürurlanacağıq, necə! O gün uzaqda deyil...

İşğaldan azad edilmiş ərazilərdə quruculuq işləri müasir Azərbaycanın daxili siyasətinin müəyyənləşdirən başlıca istiqamətlərdən biridir. Bu, eyni zamanda, xarici siyasətin də tərkib hissəsi kimi diqqəti çəkir. Qısa müddətdə tikilib istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı ölkəmizin iqtisadi inkişafında da səmərəli olacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın səfərində dedi: "Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir. Buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var". Nə qədər qürurludur! Dövlət başçısının qürurla dedikləri işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərinin mahiyyəti qədər gözəldir! 2020-ci il noyabrın 8-də yaşadığımız qürur qədər gözəldir! Quruculuq işləri başa çatanda yaşayacağımız qürur Zəfər səviyyəsində qürur yaşadacaq!

Vətən müharibəsi başlayanda Azərbaycan Ordusunun qələbə ilə başa çatacaq son döyüşünü gözləyirdik. Quruculuq işləri başlayandan dövlət başçısına "Sizin layihələriniz əsasında işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri başa çatdı!" məruzəsinin intizarındayıq. Həmin məruzəni təkcə biz gözləmirik, Azərbaycana, azərbaycançılığa sayğısı, ehtiramı olan dövlətlər də, azərbaycançılığın işığının mahiyyətini dərk edən soydaşlarımız da gözləyir. Dünyanın hər yerində.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş rayonlara səfərləri həmin rayonda quruculuq işlərini sürətləndirməklə xalqın yaşamaq üçün kəndlərinə, yeni, evlərinə qayıdışının uzaq gələcəkdə olmadığının inamıdır. Dövlət başçısının bu ilin avqustun 16-sı Kəlbəcərdə quruculuq işləri ilə bağlı layihələrin yerinə yetirilməsinin tezləşdiriləcəyinə əminliyi bu inamın zəmanətidir - Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin də təməli qoyuldu. Kəlbəcərdə quruculuq işləri istiqamətində həyata keçirilən tədbirlərin şəbəkəsi genişdir. Dövlət başçısının Kəlbəcərə səfərində "Kəlbəcər" yarımstansiyasının açılışı da oldu, Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin təməli də qoyuldu. Aylar ötdükcə ümid işığı daha da gurlaşır. Bu işıq qəlbitəmizlərin gözlərinin nuruna qarışır, qəlbipaxırların gözlərini qamaşdırır...

İşğaldan azad edilmiş rayonlar yenidən qurulur. Cəbrayıl da, Qubadlı da, Ağdam da. Düşmən görür ki, ermənilik azərbaycançılığın qarşısında heç zaman boy göstərmək qüdrətində olmayacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdamda çıxışında dedi: "Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik". Bu əminlik Zəfərdən sonra başlayan quruculuq işlərinin mahiyyətinin ifadəsidir.

Yenidən qurulmuş rayonlara qayıdış günü göy üzü üzə güləcək, 28 ilin həsrətini Zəfər bitirdi, gedənlər dağıdılmış evlərini, kəsilmiş ağaclarını, suyu qurumuş bulaqlarını, ...görüblər, erməniliyin dağıtdığı, azərbaycançılığın dirçəldiyi ərazilərə qayıdış həsrəti birdəfəlik bitəcək. Buna da Zəfərin qüdrəti deyəcəklər!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Çində səfərbərlik elan edilib



Çin Xalq Respublikasının Sədri Si Cinpin silahlı qüvvələrin təlimləri üçün səfərbərlik elan edib.

Çin silahlı qüvvələrinin ali idarəetmə orqanı olan Mərkəzi Hərbi Şuranın da sədri olan Si Cinpinin səfərbərlik haqqındakı sərəncamı Çin ordusunda 2022-ci il üçün təlimlərin başlanğıcı hesab edilir.

Təlimlər Çin Kommunist Partiyası və Mərkəzi Hərbi Şuranın təlimat və tapşırıqlarına uyğun təşkil olunur. Sərəncamda bildirilir ki, silahlı qüvvələr texnologiyanın, müharibələrin və rəqiblərin inkişafını diqqətlə izləməli, döyüş əməliyyatları ilə təlimləri daha yaxşı əlaqələndirmək üçün səylərini ikiqat artırmalı, həmçinin elit qüvvələrin təkmilləşdirilməsi üçün texnologiyaların sistematik təlimini və istifadəsini gücləndirməlidir.

Qeyd edək ki, şəxsi heyətin sayına (2,18 milyon nəfər) görə dünyanın ən böyük silahlı qüvvələri olan Çin Xalq Azadlıq Ordusu quru qoşunları, hərbi dəniz və hərbi hava qüvvələri, raket qoşunları və strateji təchizat qüvvələrindən ibarətdir. Çin ABŞ-dan sonra ikinci ən böyük müdafiə büdcəsinə malik olan və ordusunu ən sürətlə modernləşdirən dövlətlərdən biridir.

## Serbiyada tank, zirehli texnika və artilleriyalar gündəlik 420 avroya icarəyə verilir



Serbiyanın Müdafiə Nazirliyi film və fotosessiya fəaliyyətləri üçün Belqraddakı Hərbi Muzeyin müxtəlif əşyalarının icarəyə verilməsinə icazə verib.

Serbiya ordusunun qəzetində dərc olunan məlumata görə, tank, zirehli texnika və artilleriyalar gündəlik təxminən 420 avroya, hərbi yük maşınları və yolsuzluq avtomobilləri 70 avroya, hərbi geyimlər və bayraqlar isə 85 avroya icarəyə veriləcək. Pulemyotun gündəlik icarəsi 50 avroya, dəbilqələrin 42 avroya, tapançanın 21 avroya mümkün olacaq.

Hərbi Muzeydən icarəyə götürüləcək qılınc və ya tüfənglər üçün isə gündəlik təxminən 250 avro ödəniş ediləcək.

## KTMT-nin kollektiv qüvvələrinin ön bölmələri Rusiyadan Qazaxıstana göndərilib



Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sülhməramlı qüvvələri Qazaxıstana göndərilib, hazırda kontingentin Rusiya hissəsinin ön bölmələri qarşıya qoyulmuş məqsədlərin yerinə yetirilməsinə başlayıb.

Bu barədə jurnalistlərə KTMT-nin katibliyində bildirilib.

"KTMT kollektiv təhlükəsizlik Şurasının 2022-ci il yanvarın 6-da qəbul edilmiş qərarına əsasən, Qazaxıstan Respublikasına vaxtla məhdudlaşdırılmış müddətə vəziyyətin sabitləşməsi və normallaşması üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sülhməramlı qüvvələri göndərilib" - katibliyin məlumatında belə deyilir.

## Otuz min sakin üçün nəzərdə tutulan üzən şəhər





Haitidə təbii fəlakətlər nəticəsində milyonlarla sakin evsiz qalib.

Bu baxımdan bu ada ölkəsinin 30 min sakini üçün memar E.Kevin Şopferin yeni üzən şəhər layihəsi maraqla qarşılanıb.

Diametri 3 kilometr olan kompleks xətti kanallar sistemi ilə bir-birinə bağlanmış üzən modullar şəklində dörd blokdan ibarətdir.

Zəlzələlərə və qasırğalara tab gətirə bilən şəhər lazım gəldikdə genişləndirilə bilər.

**AZƏRTAC-ın materialları əsasında**

# "Ehtiyat zabit hazırlığı kursu"na növbəti qəbul başlayır

*Müdafiə Nazirliyinin hərbi hissələrinə zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 28 yaşınadək olan vətəndaşlar* ***yanvarın 5-dən 25-dək*** *müvafiq sənədlərlə birlikdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində (AO TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.*



"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilirlər. Komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər müvafiq ixtisaslar üzrə kursa qəbul edilir.

"Ehtiyat zabit hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vuran kursantlara "leytenant" hərbi rütbəsi verilməklə zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanır və onlar ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.

**Kursa qəbul olunmaq istəyən namizədlər AO TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər**:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surətilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 1 ədəd;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 1 ədəd;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 1 ədəd;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- psixiatrik, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 1 ədəd.

**Qeyd**: Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Ünvan**: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi).

**Telefon**: (012) 538-85-62

**Müraciət etmə vaxtı**: 2022-ci il yanvarın 5-dən 25-dək hər gün (bazar günü istisna olmaqla) saat 09:00-dan 17:00-dək.

# İdman

## Şahmatçımız Azər Mirzəyev Budapeştdə keçirilən beynəlxalq turnirin qalibi olub



Macarıstanın paytaxtı Budapeştdə keçirilən beynəlxalq turnirdə Azərbaycan şahmatçısı Azər Mirzəyev uğurla çıxış edib.

Təmsilçimiz 9 turdan 7 xal toplayaraq yarışın qalibi olub. İkinci yeri 6 xalla yerli idmançı Vilmos Balint tutub. Üçüncü pillədə isə 5 xalla İngiltərə təmsilçisi Şreyas Royal qərarlaşıb.

Turnir İsveçrə sistemi üzrə keçirilib.

## Qadın voleybolçulardan ibarət Azərbaycan millisi beynəlxalq reytinq cədvəlində 42-ci pillədə qərarlaşıb

Qadın voleybolçulardan ibarət milli komandaların reytinq siyahısı açıqlanıb.

Beynəlxalq Voleybol Federasiyasının (FIVB) açıqladığı siyahıda Azərbaycan yığması da yer alıb. Millimiz 94 xalla dünyanın 42-ci komandasıdır.

Cədvəldə ilk üçlükdə ABŞ (379), Braziliya (366) və Çin (350) milliləri yer alıblar.

## Cüdoçularımız Antalyada beynəlxalq təlim-məşq toplanışında iştirak edəcəklər



Cüdo üzrə yığma komandamız Antalyada beynəlxalq təlim-məşq toplanışında iştirak edəcək.

Hazırlıq prosesinə böyüklər və gənclərdən ibarət milli komandalarımız qatılacaqlar. Təlim-məşq toplanışına yanvarın 8-də start veriləcək və ayın 15-dək davam edəcək.

Qeyd edək ki, böyüklər və gənclərdən ibarət cüdo üzrə yığma komandalarımız sonuncu hazırlığını Göygöl Olimpiya İdman Kompleksində keçib. İlin sonuncu təlim-məşq toplanışında əsasən, Bakı, Sumqayıt, Gəncə və Qəbələdən yaşı 18-dən 31-dək olan cüdoçular iştirak ediblər.

## Azərbaycanlı futbolçuların yeni transfer qiymətləri açıqlanıb

Avropanın məşhur "Transfermarkt" portalının məlumatına əsasən, əksər futbolçularımızın dəyəri 2021-ci ilə nəzərən yüksəlib. Siyahıda yalnız "Sumqayıt"ın müdafiəçisi Tellur Mütəllimovun qiyməti 450 min avrodan 400 min avroya düşüb.

"Qarabağ"ın qapıçısı Şahrudin Məhəmmədəliyevin dəyəri 300 min avro artaraq 800 min avroya çatıb. Ağdam təmsilçisinin hücumçuları - Ramil Şeydayev və Rüstəm Əhmədzadənin də qiymətlərində yüksəlik olub. R.Şeydayevin transfer dəyəri 450 mindən 600 min, R.Əhmədzadənin isə 200 mindən 300 min avroya yüksəlib.

"Neftçi"nin müdafiəçisi Mert Çelikin 250 min avroluq dəyəri 100 min, klubun yeni transferi Azer Salahlının isə 350 min avroluq dəyəri 400 min avro müəyyənləşdirilib.

Ölkə çempionunun kapitanı Emin Mahmudovun qiyməti 1 milyondan 1,2 milyon avroyadək yüksəlib. Polşanın "Visla" (Plotsk) komandasında çıxış edən Anton Krivotsyukun qiyməti isə 800 mindən 1 milyon avroya çatıb. Legioner həyatı yaşayan digər futbolçu Renat Dadaşovun da qiymətində artım qeydə alınıb. Müqavilə ilə İngiltərə "Vulverhempton"una məxsus olan və icarə əsasında Portuqaliya "Tondela"sında çıxış edən 23 yaşlı hücumçunun qiyməti 100 min avro artaraq 400 min avroya çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Tarixin qəribə silahları

Silah insanların və ölkələrin başqa bir insana və ya ölkəyə qarşı müdafiə və müqavimət, bəzən də hücum məqsədilə istifadə etdiyi alətdir. Silahlardan həm də özünü müxtəlif yırtıcılardan və təhlükəli obyektlərdən qorumaq üçün istifadə edilir. İlk dəfə odlu silah XIV əsrdə Çində ixtira olunub. Silahda istifadə olunan barıt da IX əsrdə çinlilər tərəfindən ixtira edilib. Lakin XX əsrdə insanları öldürmək üçün xüsusi silahlar ixtira edilib. Belə silahlar əsasən dövlət təşkilatları tərəfindən hazırlanıb.



*"Paris topu"*

**Paris topu**: Fransızlar tərəfindən Birinci Dünya müharibəsi zamanı almanlara qarşı istifadə olunan "Paris topu" hədəfi tam dəqiq vura bilməsə də, psixoloji olaraq qorxutmaq məqsədi ilə istifadə olunub.

**"Yarasa bombası"**: Birinci Dünya müharibəsi zamanı ABŞ mütəxəssisləri



*"Yarasa bombası"*

tərəfindən hazırlanan "Bat Bomb" adlanan bu silahın içərisinə minədək yarasa doldurulur. Hər yarasanın üzərinə kiçik bombalar yerləşdirilir. Buraxıldıqdan sonra hər yarasa ayrıca bir partlayıcıya çevrilir.



*"Krummlauf təlimli tüfəng"*

**Krummlauf təlimli tüfəng**: Damlardan və divar tinlərindən rahat atəş açmaq üçün nasistlərin hazırladığı bu silahın hədəfi tam görmədiyindən güllələrin bir çoxu boşa getsə də, düşməni atəş altında saxlamaq imkanı yaradırdı.



*"Tullanan bomba"*

**"Tullanan bomba"**: Nasistlər tərəfindən hazırlanan bu bomba havadan suya atılırdı və suyun üzərində qalırdı. Sualtı qayıqlar yaxınlaşdığı anda onu partladırdı.



*VESPA 150 TAP*

**VESPA 150 TAP**: Fransa ordusunun əsgərləri üçün hazırlanan bu "motosiklet" bir növ tanka bənzəyir. Hərəkət etdiyi zaman da istənilən hədəfə zərbə endirə bilir.



*"Man Catcher"*

**"Man Catcher"**: XVIII əsrdə istifadə olunan bu silah döyüş vaxtı əsgərləri atdan yerə salmaq üçün istifadə olunub.



*Lazerli təyyarə*

**Lazerli təyyarə**: Hədəfdə olan bölgələri lazer şüası ilə havadan məhv edən bu təyyarə ABŞ hərbi mütəxəssisləri tərəfindən hazırlanıb.

**"Ağız qarmonu" tapançası**: XIX əsrdə ixtira olunan bu silahı ağız qarmonuna bənzədirlər və bu əsrin ən qəribə silahlarındandır.

**"Azərbaycan Ordusu"**



*"Ağız qarmonu" tapançası*

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 14
Nüsxə 4044